Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

UOT 1:001.92

# ƏL-KİNDİNİN FƏLSƏFİ TƏLİMİ

***Rəhim HƏSƏNOV,***
*AMEA-nın Fəlsəfə İnstitunun doktorantı,*
*hesenli.82@inbox.ru*

*Zaman cismin mövcud olma müddətidir.*
*Zaman, məkan və hərəkət bir-birindən ayrı şəkildə mövcud deyil.*
***əl-Kindi***

***Xülasə.*** *Məşşailik cərəyanı adı altında tanınan Şərq peripatetizminin banisi, "Ərəblərin filosofu" ("Fəyləsuf ül-ərəb") ünvanına layiq görülən Əbu Yusuf Yaqub ibn İshaq əs-Səbbah əl-Kindi (801-873) ensiklopedik zəkaya sahib idi. Orta əsrlərdə Avropada "Kindius" kimi tanınan əl-Kindi müsəlman dünyasının ən böyük filosoflarından biridir.*

*Tanrı ilə dünya arasındakı əlaqənin təfsiri zamanı əl-Kindi Aristotel doktrinasından tamamilə fərqli ideyalar irəli sürmüş, tanrı ilə dünya arasındakı əlaqəni İslam prinsiplərinə uyğun əsaslandırmışdır. Aristotel və Platonun əsərlərini İslam fəlsəfəsinə sintez edən əl-Kindiyə görə, fəlsəfənin əsas məqsədi Allaha qovuşmağı izah etməkdir. O, A.Eynşteyndən 11 əsr əvvəl nisbilik nəzəriyyəsini izah edərək, bütün cisimlərin və varlıqların hərəkətlərinin mahiyyətini müfəssəl şəkildə şərh etmişdir.*

*Ümumiyyətlə, əl-Kindinin fəlsəfi sistemində Aristotelin təsiri açıq şəkildə özünü büruzə verir. Mütəfəkkirin fəlsəfi yaradıcılığında Aristotel fəlsəfəsi əsasında İslam dinini analiz etmək dururdu. Bu onun həm tanrı haqqında, həm də kateqoriyalar haqqındakı ideyalarında öz əksini tapmışdır.*

***AÇAR SÖZLƏR:*** *əl-Kindi, mütləq varlıq, ağıl, həqiqət, kainat, elmlərin təsnifatı, nəfs, əxlaq.*

Рахим Гасанов

## ФИЛОСОФСКОЕ ОБУЧЕНИЕ АЛЬ-КИНДИ

***Резюме.*** *Абу Юсуф Якуб ибн Исхак ас-Саббах аль-Кинди (801–873), основатель восточного перипатетизма, известного как месхетинская секта, удостоенный звания «философ арабов» («файласуф уль-араб»), имел энциклопедический интеллект. Аль-Кинди, известный в Европе в Средние века как Киндиус, был одним из величайших философов мусульманского мира.*

*В толковании отношений между Богом и миром Аль-Кинди выдвигал идеи, совершенно отличные от учения Аристотеля. Мыслитель обосновывал отношения между Богом и миром в соответствии с исламскими принципами. Для Аль-Кинди, синтезировавшего труды Аристотеля и Платона в исламскую философию, главная цель философии — объяснить воссоединение с Богом. Аль-Кинди объяснил теорию относительности за 11 веков до А. Эйнштейна и подробно объяснил природу движений всех предметов и существ.*

*В целом влияние Аристотеля на философскую систему аль-Кинди очевидно. Философское творчество мыслителя основывалось на анализе ислама на основе философии Аристотеля. Это отражено в его представлениях как о Боге, так и о категориях.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Аль-Кинди, абсолютное бытие, разум, истина, вселенная, классификация наук, самость, мораль.*

Rahim Hasanov

# AL-KINDI'S PHILOSOPHICAL TRAINING

***Summary.*** *Abu Yusuf Yaqub ibn Ishaq al-Sabbah al-Kindi (801-873), the founder of Eastern Peripateticism, known as the Meskhetian sect, awarded the title of "Philosopher of the Arabs" ("Faylasuf ul-Arab"), had an encyclopedic intellect. Known in Europe in the Middle Ages as Kindius, al-Kindi was one of the greatest philosophers in the Muslim world.*

*In interpreting the relationship between God and the world, Al-Kindi put opinions completely different from Aristotle's doctrine. The thinker justified the relationship between God and the world in accordance to Islamic principles. For Al-Kindi, who synthesized the works of Aristotle and Plato into Islamic philosophy, the main purpose of philosophy is to explain the reunion with God. Al-Kindi explained the theory of relativity 11 centuries before A. Einstein and explained in detail the nature of the movements of all objects and beings.*

*In general, Aristotle's influence on al-Kindi's philosophical system is obvious. The philosophical work of the thinker was based on the analysis of Islam on the basis of Aristotle's philosophy. This is reflected in his ideas about both God and categories.*

***KEY WORDS:*** *Al-Kindi, absolute being, mind, truth, universe, classification of sciences, self, morality.*

Məşşailik cərəyanı adı altında tanınan Şərq peripatetizminin banisi, "Ərəblərin filosofu" ("Fəyləsuf ül-ərəb") ünvanına layiq görülən Əbu Yusuf Yaqub ibn İshaq əs-Səbbah əl-Kindi (801-873) 801-ci ildə Kufə şəhərində zadəgan ailəsində dünyaya göz açmışdır. Ensiklopedik zəkaya sahib əl-Kindi fəlsəfə, tibb, riyaziyyat, astronomiya, ilahiyyat, psixologiya, fizika, kimya və musiqiyə dair sanballı əsərlər yazmışdır.

Orta əsrlərdə Avropada Kindius kimi tanınan əl-Kindi müsəlman dünyasının ən böyük filosoflarından biri idi. Onun babası Əşas Cənubi Ərəbistanın ən böyük qəbilələrindən olan Kinda qəbiləsinin başçısı idi. Müsəlmanlığı qəbul etdikdən sonra Kufəyə köçmüşdü. Atası İshaq ibn əs-Sabbah Abbasi xəlifəsi Harun ər-Rəşidin dövründə Kufə valisi kimi fəaliyyət göstərmişdir. Kiçik yaşlarından yetim qalmasına baxmayaraq, aristokrat və zəngin ailədən olduğu üçün əl-Kindinin həyatı rifah içində keçmişdir. Onun həm Bəsrədə, həm də Bağdadda əmlakı var idi.

Bəsrə və Kufə şəhərlərində dil və ədəbiyyatı öyrənən əl-Kindi 830-cu ildə "Beyt əl-Hikmət"ə ("Hikmətlər evi") daxil oldu. Abbasilər tərəfindən təsis edilən və xəlifələrin böyük önəm verdiyi "Beyt əl-Hikmət" Bağdadda fəaliyyət göstərən böyük tədqiqat mərkəzi idi. Burada əl-Kindi böyük elmi əhəmiyyət kəsb edən bir çox yunan və hind əsərlərini ərəb dilinə tərcümə etdi. Abbasi xəlifələrinin xüsusi diqqət yetirdiyi əl-Kindi sarayda astroloq və münəccim kimi də xidmət etmişdir. İlk İslam filosofu olan əl-Kindi Abbasi xəlifəsi Məmun tərəfindən "Beyt əl-Hikmət"ə rəhbər təyin edildi, xəlifə Mütəvəkkil isə onu özünün xüsusi xətibi təyin etdi. Abbasilər dövrünün önəmli filosofu olan əl-Kindi elm və fəlsəfə sahəsindəki bacarığına görə xəlifə Mötəsim tərəfindən saraya dəvət olundu, onun adına kitabxana açıldı. Xəlifə Mötəsim oğlu və vəliəhdi Əhmədin təhsili ilə məşğul olmağı əl-Kindiyə tapşırdı. Filosofun bir çox əsəri də məhz bu varisin tələbi ilə yazılmış, yaxud bu vəliəhdə həsr edilmişdir.

Aristotel və Platonun əsərlərini İslam fəlsəfəsinə sintez edən əl-Kindiyə görə, fəlsəfənin əsas məqsədi Allaha qovuşmağı izah etməkdir. "Əl-Kindi Aristotelin əsərlərinə ("Orqanon" və s.) şərh, həmçinin metafizika məsələlərinə dair bir sıra əsərlər yazmışdır. Dünyagörüşünün əsasında ən ümumi səbəbiyyət əlaqəsi ideyası durmuşdur. Onun fikrincə, bu səbəbiyyət əlaqəsi sayəsində hər bir şey, əgər o axıra qədər dərk edilmişsə, bütün dünyanı güzgüdə olan kimi onda dərk etməyə imkan verir" [1, s.226].

Məşşailiyin, yəni Şərq peripatetizminin meydana gəlməsində böyük rol oynayan əl-Kindinin 17 əsəri latın dilinə, 4 əsəri ibrani dilinə tərcümə edilmişdir. Filosof tərcümə etdiyi əsərlərə müxtəlif

əlavələr də etmişdir. Məhz bu tərcümələr əsasında əl-Kindinin dünyagörüşü formalaşmağa başlamışdır. Geniş dünyagörüşünə malik olan əl-Kindi fəlsəfə, tibb, siyasət, psixologiya, optika, astrologiya, kimya və s. kimi 20 müxtəlif elm sahəsi üzrə 277 əsər yazmışdır. Onun qələmə aldığı əsərləri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Həndəsə-32 əsər;
b) Tibb-22 əsər;
c) Fəlsəfə-22 əsər;
d) Astronomiya-16 əsər;
e) Fizika-12 əsər;
f) Riyaziyyat-11 əsər;
g) Məntiq-9 əsər;
h) Musiqi-7 əsər;
i) Psixologiya-5 əsər.

Əl-Kindi yunan dilində yazılmış elmi-fəlsəfi əsərləri ərəb dilinə tərcümə edən ilk insanlardan biridir. Lakin onun əsərlərinin əksəriyyəti bu günə qədər gəlib çatmamışdır. Bununla birlikdə, onun bir çox əsəri italyan alim Qerard Kremon (1114-1187) tərəfindən latın dilinə çevrilmişdir. Ölümündən sonra əl-Kindinin fəlsəfəyə aid bir çox əsərləri itmiş və ya məhv edilmişdir. Bunun səbəblərindən biri din sahəsindəki sərt tənqidlərinə görə monqolların Bağdadı işğalı zamanı bu əsərləri məhv etməsidir. 1258-ci ildə monqollar Bağdadı talan etdiyi zaman əl-Kindinin əsərlərinin əksəriyyəti digər qiymətli əlyazmalar kimi Dəclə çayına atılmışdır. Filsofun yalnız 40-a yaxın əsəri müasir dövrə qədər gəlib çatmışdır.

Əl-Kindi sayəsində fəlsəfə İslam düşüncəsinin bir hissəsi kimi formalaşmağa başlamışdır. Mütəfəkkir Yaxın Şərq xalqlarının fəlsəfi düşüncəsinin sonrakı inkişafına mühüm təsir göstərmişdir. Onun əsərləri X-XI əsrlərin məşhur alimləri tərəfindən tərcümə edilmişdir. Qərb dünyasına optika elminin tanıdılması birbaşa əl-Kindinin adı ilə bağlıdır. Əl-Kindinin elmi-fəlsəfi yaradıcılığından ingilis alimi və filosofu Rocer Bekon da əsaslı şəkildə bəhrələnmişdir. Məşhur italyan filosofu və riyaziyyatçısı Kardano Cerolamo (1501-1567) 1550-ci ildə qələmə aldığı “De Subtilitate” adlı kitabında əl-Kindinin on iki dünya şöhrətli alim və filosofdan biri olduğunu vurğulamışdır [2, s.18].

Təfəkkürə böyük əhəmiyyət verən əl-Kindi ağılın heç vaxt dinə zidd olmadığını, bu iki faktın hər zaman bir-biri ilə uzlaşdığını iddia edirdi. Ancaq din və ağıl qarşı-qarşıya gəldiyi zaman dinə üstünlük verirdi. Aristotelin yaratdığı nəhəng fəlsəfi sistemdən təsirlənən əl-Kindi hisslərimizin yalnız konkret şeyləri qavraya biləcəyini və mənəvi şeyləri qavramağın qeyri-mümkün olduğunu iddia edirdi. “Elmi idrakın üç mərhələsi haqqında əl-Kindi tərəfindən yaradılmış konsepsiya müsəlman aristotelizmi üçün böyük əhəmiyyətə malik idi. Qeyd etmək istərdik ki, elmi idrakın üç mərhələsi haqqında əl-Kindinin irəli sürdüyü konsepsiya təkcə müsəlman aristotelizmi üçün deyil, həm də ümumdünya fəlsəfi proses üçün mühüm əhəmiyyət kəsb edirdi” [3, s.76].

Əl-Kindiyə görə, fəlsəfi biliyin ilk addımı təfəkkürdür, fəlsəfənin məqsədi Allaha çatmaq, sübutun məqsədi isə maddəni meydana gətirən mahiyyətləri bilməkdir. İnsanın düşüncə yolu ilə sadədən mürəkkəbə doğru addım atdığını iddia edən filosof mövcudluğa rasional yanaşdığı üçün Tanrının xüsusiyyətlərini inkar edirdi. Filosofun fikrincə, Allah mütləq varlıq olduğu üçün onun forması, keyfiyyəti, miqdarı, maddəsi yoxdur və ümumiyyətlə, Allah nisbi bir varlıq deyil.

Əl-Kindi Ptolemeyin Günəş sistemi nəzəriyyəsini dəstəkləyirdi. 40 fəsildən ibarət “Ulduzların qanunu” adlı kitabında, həmçinin “Hava dəyişməsi”, “Günəş tutulması” və “Ulduzların şüaları” adlı əsərlərində alimin astronomiya ilə bağlı fikirləri toplanmışdır. Əl-Kindi dünyanın sonlu olduğunu, zaman və hərəkət kontekstində yaradıldığını düşünür. Onun əldə etdiyi nəticəyə görə, Allah heç bir şəkilə, heç bir kəmiyyətə malik deyil və vahid olan mütləq səbəbdir.

Əl-Kindiyə görə, fəlsəfə əbədi və külli olan varlıqların həqiqətlərini, təbiətini və səbəblərini bilməkdir. Mütəfəkkirin fikirincə, din və fəlsəfə arasında ciddi bir ayrılıq yoxdur, çünki bunların hər

ikisinin məqsədi həm bu dünyada, həm də axirətdə hikmət axtarmaqdır. “Əl-Kindi göstərmişdir ki, fəlsəfəni rədd edənlər istər-istəməz onu öyrənməlidirlər. Çünki fəlsəfəni öyrənməyin lazımlı olub-olmadığını sübut etmək gərəkdir; fəlsəfəni inkar edənlər bunu isbatlamalıdırlar. Sübut göstərib səbəbləri tapmaq isə fəlsəfənin işidir. Deməli, fəlsəfəni öyrənmək zəruridir” [4, s.72-73].

Əl-Kindi həm dini metodun, həm də fəlsəfi metodun insanları həqiqətə aparmasına inanırdı. Onun sözlərinə görə, peyğəmbər və filosofun hədəfləri eynidir. Ancaq peyğəmbərə vəhy yolu ilə ötürülən biliklər filosofun bilgisindən daha etibarlı və üstündür, çünki peyğəmbərin biliyi ilahi mahiyyət kəsb edir. Alim hesab edirdi ki, peyğəmbərin verdiyi biliklər filosofun verdiyi biliklərdən daha açıq, daha ecazkar və daha dolğundur. “Məhz peyğəmbərlərin Şanı Uca Allahdan öyrəndiyi biliklər bütövlükdə belə biliklərdəndir. Çünki peyğəmbərlər Allahın birliyi, Onun bəyəndiyi üstün əxlaqi məziyyətlərin zəruriliyi, fəzilətə zidd pisliklərin qadağan edilməsi haqqında biliklər gətirmişlər” [2, s.31]. Hər şeyin varlığının və davamlılığının səbəbi həqiqətdir, fəlsəfə varlığın səbəbini bilməkdir. Eyni zamanda fəlsəfə sivilizasiya qurmaq üçün intellektual zəmin hazırlamaqdır.

Əl-Kindiyə görə, kimin aşkarlamasından asılı olmayaraq, həqiqət olduğu kimi qəbul edilməlidir. Hətta düşmən tərəfindən fəlsəfi həqiqət aşkarlanmışdırsa, bu həqiqət qəbul olunmalıdır. Fəlsəfə öyrənmək istəyən insan üstün zəkaya, səbrə, istedada və yaradıcılıq qabiliyyətinə malik olmalı, tədqiqat işinə fasiləsiz vaxt sərf etməlidir. O deyirdi ki, maddə sonludur, yalnız Tanrı əbədi və dəyişməzdir. Klassik yunan fəlsəfəsindən fərqli olaraq, əl-Kindi riyazi və məntiqi yolla dünyanın Tanrı tərəfindən yoxdan yaradıldığını əsaslandırırdı. Mütəfəkkirin bu ideyası həm Platonun, həm də Aristotelin fəlsəfi sistemi ilə ziddiyyət təşkil edir. Fəlsəfə elmini öyrənmək istəyən hər kəs əvvəlcədən izah etdiyimiz qaydada fizika, riyaziyyat, metafizika, əxlaq kitablarını oxumalıdır.

İnsan istəklərini öldürməklə fəzilətlərə sahib ola bilər, istəklərini öldürən və ya arzularına hakim olan hər kəs güclü insandır. Eyni zamanda, həyatdan və ölümdən qorxmağa ehtiyac yoxdur. Ölüm insanın dünyəvi istəklərinin sona çatması səbəbindən insan üçün çətin olan bir durumdur. Lakin heç kim ölümdən qorxmamalıdır.

Əl-Kindi İslam cəmiyyətində metod məsələsi ilə bağlı ən çox araşdırma aparan filosoflardan biridir. Filosof “Kitab fi’l-fəlsəfəti’l-ula” adlı əsərində bu məsələyə toxunaraq hər bir elmin öz metodu olduğunu və tədqiqatçıların nəyi, harada və necə araşdırmasını bilmədikləri üçün dəfələrlə uğursuzluğa düçar olduğunu bildirir. Mütəfəkkirə görə, hər hansı elm sahəsində tədqiqat aparanlar əvvəlcə bu elmin əsaslarını araşdırmalı və maddi varlıq sahəsi ilə metafizik sahənin fərqini anlamalıdırlar. Filosof bildirirdi ki, insan zehnində rasional biliklərin konkret görüntüsü yoxdur. Bəzi məlumatlar metafizik sahədə sübut olunsa da, bütün rasional məlumatları sübuta yetirmək mümkün deyil, çünki sübut prosesi əbədi davam edir.

Əl-Kindiyə görə, Allah mütləq varlıqdır, mütləq varlıq vahid olduğu üçün onun forması, keyfiyyəti, miqdarı, maddəsi yoxdur. Allahın hərəkətlərinin tamamilə ədalətli olduğunu iddia edən əl-Kindi öz dövrünün ilahiyyatçıları kimi İslamı müdafiə etmək üçün digər dinlərə və mədəniyyətlərə qarşı ciddi əsərlər yazmışdır. “Risalə fi nakzı məsaili’l-mülhidin” əsərində dəhrilərə, “Risalə fi’r-rəd alə’l-maniyyə” ilə “Risalə fi’r-rəd alə’s-sənəviyyə” əsərində maniheizmə, “Risalə fi təsbiiti’r-rusül” əsərində brahmanizmi, “Makalə fi’r-rəd alə’n-nasara” əsərində Xristianlığa tənqidi yanaşmışdır. O digər dini təlimlərə tənqidi yanaşsa da, İslam dininin əsas ehkamlarını qəbul edirdi. “Əl-Kindi insanın yaradılması, ölənlərin dirilməsi və o dünya haqqında dini ehkamları qəbul edir, lakin bu fikrini möhkəmlətmək üçün ellinist təfəkkürə müraciət edir, bu ehkamları zəka ilə inamın mümkün harmoniyası baxımından öyrənməyə çalışır. Əl-Kindinin təlimində zəka dini qanunun dəstəyinə arxalanaraq sözün həqiqi mənasında müsəlman fəlsəfəsinin yaranmasını qabaqlayır” [5, s.63-64].

Əl-Kindi elmlərin təsnifatını verərkən Platon və Aristotelin bu barədə irəli sürdüyü fikirlərdən bəhrələnmişdir. Belə ki, alimin bu sahədə önə sürdüyü fikirlər ilə Platon və Aristotelin fikirləri arasında həm oxşar, həm də fərqli nüanslar vardır. Platon varlığı və bilikləri aşağı, orta və yuxarı təbəqəyə bölür, fizikanı aşağı, riyaziyyatı orta, metafizikanı isə yuxarı təbəqəyə aid edirdi. Bu bölgüdə əsas məqsəd ağılın konkretdən mücərrədə necə yüksəldiyini göstərmək idi. Aristotel isə elmləri nəzəri, praktik və

poetik elmlər adı altında qruplaşdırırdı. Əl-Kindi isə elmləri dini elmlər və insani elmlər olmaq üzrə iki yerə ayırırdı. Dini (ilahi) elmin mənbəyi vəhydir, vəhy Allahın peyğəmbərlərə ötürdüyü biliklərdir. Vəhy təmiz nəfsə malik olan insanlara ötürülür, bu baxımdan da vəhyin ötürülməsi zamanı məntiq və riyazi metodlara ehtiyac duyulmur. Vəhy nə duyğu, nə də ağıl gücü ilə əldə edilən məlumatlardan ibarətdir. Vəhyin ötürülməsi prosesində iradə və istək də heç bir əhəmiyyət kəsb etmir. Əl-Kindi vəhy yolu ilə alınan məlumatların fəlsəfi vasitələrlə əldə edilən məlumatlardan üstün olduğunu düşünürdü, buna baxmayaraq, bu iki məlumat eyni həqiqəti ifadə edir və mahiyyətcə bir-birindən fərqlənmir. Ona görə də vəhy fəlsəfə və din ilə tamamilə uyğundur.

İnsani elmlər isə fəlsəfə elmi altında cəmlənir, insani elmlər iki əsas kateqoriyaya bölünür:

1. Həqiqəti birbaşa olaraq araşdıran elm;
2. Həqiqəti digər fənlər vasitəsilə araşdıran elm.

Birbaşa elm də öz növbəsində nəzəri və praktik olaraq iki qrupa bölünür. Nəzəri olanlar üç təbəqədən ibarətdir: aşağı təbəqədə fizika, orta təbəqədə psixologiya, yuxarı təbəqədə metafizika yerləşir. Praktik elmlər isə əxlaq və siyasətdən ibarətdir. Həqiqəti digər fənlər vasitəsilə araşdıran elmlər məntiq və riyaziyyat olmaqla iki hissəyə ayrılır.

Məntiq elmi kateqoriyalar, təkliflər, analitiklər, sofistik dəlillərin təkzib edilməsi, disput sənəti, ritorika və şeirdən ibarətdir. Riyaziyyat isə hesab, həndəsə, astronomiya və musiqi fənlərindən ibarətdir. Əl-Kindiyə görə, riyaziyyatdan xəbəri olmayan bir insan ömür boyu fəlsəfəni oxusa da, başa düşə bilməyəcək. Astronomiya kainatın ümumi dizaynını verdiyi üçün fəlsəfə ilə məşğul olanların bu sahəyə də diqqət yetirmələri olduqca vacibdir.

Əl-Kindi mötəzilə ilahiyyatçıları tərəfindən müzakirə edilən bəzi məsələləri mənimsəyərək bu mövzuda əsərlər yazmışdır. Filosof bu məsələ ilə bağlı qələmə aldığı “Risalə fi’l-fəlsəfəti’l-Ala” adlı əsərində dəhrilərə, yəni ateistlərə qarşı məntiqi və riyazi dəlillərlə çıxış etmişdir. “Əl-Kindi Allah kəlamını fəlsəfənin zirvəsi hesab edirdi. O, inandırırdı ki, heç bir filosof Həzrət Məhəmmədin sözlərində olduğu kimi yığcam, aydın, sadə və tam cavablar verə bilməz. İlahi sözlər (Quran) hər hansı insan məntiqindən yüksəkdir” [6, s.103].

Əl-Kindi “Risalə fi’l-al” kitabında ağılın xarakterini və funksiyalarını araşdırmışdır. Filosof ağlın abstrakt mahiyyəti və onun müstəqil işlənməsi barədə öz mülahizələrini irəli sürürdü. O, ağlı dörd yerə ayırırdı:

a) Davamlı hərəkət halında olan ağıl (əl-əqlü’lləzi bi’l-fiil əbədən).
b) Güc halında olan ağıl (əl-əql bi’l-quvvə).
c) Hərəkət halına yüksələn müstəfad ağıl (əl-əqlü’lləzi haracə minə’l-quvvə ilə’l-fiil).
d) Bəyani və ya zahiri ağıl (əl-əqlü’l-bəyani əvi’z-zahir).

Tanrı ilə dünya arasındakı əlaqənin təfsiri zamanı əl-Kindi Aristotel doktrinasından tamamilə fərqli ideyalar irəli sürürdü. Mütəfəkkir tanrı ilə dünya arasındakı əlaqəni İslam prinsiplərinə uyğun əsaslandırırdı. Filosof aksiomlar vasitəsilə (bədihi) kainatın Allahın sərbəst və mütləq iradəsi nəticəsində yoxdan yaradıldığını sübut etməyə çalışırdı. Filosofa görə, dünya əbədi və sonsuz ola bilməz, ümumiyyətlə heç bir kəmiyyət sonsuz ola bilməz. Maddə, hərəkət və zaman əbədi deyil, bununla yanaşı, maddənin, hərəkətin və zamanın mövcudluğu bərabərdir, biri digərindən əvvəl və ya sonra mövcud ola bilməz. Hərəkət maddə ilə əlaqəli bir anlayışdır, buna görə də müstəqil varlıq deyildir.

Əl-Kindi ruh və bədən arasındakı əlaqəyə bənzər bir əlaqənin Allahla dünya arasında mövcud olduğunu söyləyirdi. Ümumiyyətlə, ruh olmadan vücudu idarə etmək mümkün deyil və bədəndə təsiri görünməyincə ruhun varlığını anlamaq mümkün deyil. Görünən aləm də belədir, görünməz bir aləm olmadan onu idarə etmək mümkün deyil. Görünməz aləmi anlamaq yalnız bu aləmdə varlığını göstərən obyektlər dünyasını öyrənmək və tanımaq yolu ilə əldə edilir. Çünki bu dünyadakı hər şey onun varlığının şahididir. Əl-Kindiyə görə, maddə sonludur, yalnız əbədi və əzəli olan Allah sonsuz və dəyişməzdir.

Antik dövr yunan fəlsəfəsi haqqında müfəssəl biliyə malik olan əl-Kindi qədim yunan filosofu və

astronomu Klavdius Ptolemeyin “Almagest” əsərində irəli sürdüyü geosentrik təlimini dəstəkləyirdi. “Onun fikrincə, kainatın mərkəzində Yer kürəsi durur. Materiya, forma, məkan, zaman və hərəkət maddi şeylərin beş təməlidir. Materiya maddə, forma şeyin şəkli, məkan onun yerləşdiyi yer, hərəkət bir məkandan digərinə keçmək, zaman isə həmin keçidin müddəti deməkdir. O, bədənsiz ideyaların mövcudluğunu qəbul edir və göstərirdi ki, ruh belə ideyaların mənbəyidir. Ruh bədəni tərk etdikdən sonra ayrıca ideya şəklində yaşayır” [7, s.57].

Əl-Kindi zamanın cisim və hərəkətlə əlaqəli bir anlayış olduğunu vurğulayırdı. Filosof zaman anlayışını aşağıdakı xüsusiyyətlər üzrə xarakterizə edir:

1. Zaman aləmin var olma müddətidir;
2. Zaman hərəkətlərin sayıdır:
3. Zaman fələyin (göy cisimlərinin) hərəkətlərindən ibarətdir;
4. Zaman hərəkətlərin müddətini təyin edir;
5. Zaman dəyişkən bir prosesdir.

Məlumdur ki, bu təriflərdən birincisi Platona, beşincisi ilahiyyatçılara, digərləri isə Aristotelə aiddir [2, s.98]. Zaman hərəkəti saymaq və sürəti müəyyən etməklə yanaşı, sakitliyi (sükun) də müəyyənləşdirir.

İlk və orta əsrlər kosmologiyasında üstünlük təşkil edən ümumi anlayışa görə, aləm adlanan maddi kainat ayın üstü və ayın altı olmaqla iki əsas sahəyə ayrılmışdır, o dövrdə geniş yayılmış bu ideologiya ilə əl-Kindi də razılaşırdı. Ay üstü dünyası forma cəhətdən ideal və mükəmməl hesab olunur, bu dünyada mövcud olan varlıqlar məhv olma qanuna tabe deyil. Ay üstü dünyasında sabit formada ulduzlara və planetlərə “əl-əşhəsü’l-aliyə” deyilir. Məhv olma qanununa tabe olan ay altı dünyasında isə əbədi olmayan varlıqlar mövcuddur.

Əl-Kindinin “Fi ənnəhu cəvahiru la əcsam” adlı kitabında filosofun cövhər, yəni substansiya haqqındakı fikirləri öz əksini tapmışdır. Filosofun fikrincə, canlıların əsas xüsusiyyəti hiss və hərəkət gücünə sahib olmalarıdır. Bu nöqteyi-nəzərdən yanaşsaq, fələk də canlıdır, duyğu və hərəkət etmə qabiliyyətinə malikdir. Ancaq fələkdə ay altındakı varlıqlara xas olan bəslənmə, böyümə və çoxalma prosesləri mövcud olmasa da, həqiqi bilik və fəzilətlərin əldə edilməsini təmin edən görmə və eşitmə hissi var. Əl-Kindinin fikrincə, göy cisimləri mütləq ağıllı varlıqlardır. Ümumiyyətlə, canlılar ya ağıllı, ya da ağılsızdır, göy cismi və insanlar ağıllıdır, digər məxluqlar isə ağılsızdır. İnsan nəfsi şəhvət, qəzəb və ağıl kimi üç fərqli xüsusiyyətə malikdir. Şəhvət nəslin davam etməsini, qəzəb düşməndən qorunmağı, ağıl isə zehni və əxlaqi xüsusiyyətlərə malik olmağı təmin edir. Göy cisimlərində heç bir dəyişiklik olmadığı üçün onlar şəhvət və qəzəbə ehtiyac duymurlar. Fələk və göy cisimləri havadan da yüngül olan efir adlı bir maddədən ibarət olduğu üçün şəffafdır. Sferik formada olan göy cisimlərinin hərəkətləri də dairəvi formadadır. Kainatın mərkəzində yerləşən Yer də sferik (kürə) formasındadır. Ay altında yerləşən dünyadakı cisimlər torpaq, su, hava və atəşdən ibarətdir, bu dörd ünsür Ay altında sferik təbəqə meydana gətirmişdir.

Əl-Kindi nəfs barədə öz nəzəriyyəsini irəli sürərkən həm yunan, həm də İslam düşüncə sistemindən bəhrələnmişdir. Əl-Kindi İslam dünyasında nəfsin təbiətini və funksiyalarını, nəfsin təmizlənməsi yollarını, nəfsin ölümdən sonrakı vəziyyətini fəlsəfi cəhətdən araşdıran ilk filosofdur. Mütəfəkkirin bu mövzuda yazdığı beş əsərdən üçü bizim dövrümüzə qədər gəlib çatmışdır. Bunlar “Əl-qavl fi’n-nəfs”, “Kalamün fi’n-nəfs müxtəsərun vəciz”, “Risalə fi mahiyyəti’n-nəvm və›r-rüya” adlı əsərlərdir.

Əl-Kindi əxlaq haqqındakı fikirlərini də nəfsin mahiyyəti üzərində qurmuşdu. Çünki nəfsin sahib olduğu bütün əxlaqi fəzilətlər bədənin dünyəvi istəklərinin qarşısını alaraq ən yüksək səviyyəyə çatması ilə xarakterizə olunur. Bu əxlaqi fəzilətlər nəfs gücləri arasındakı mübarizə nəticəsində də ortaya çıxır. Filosofa görə, hər cür əxlaqın məqsədi səmərəli, asudə və xoşbəxt bir həyat sürmək, xoşbəxtliyin qarşısını alan hər şeydən çəkinmək, xoşbəxt həyat tərzi üçün mübarizə aparmaqdır. Əl-Kindinin əxlaqa dair yazdığı əsərlərə “Risalə fi’l-əxlaq”, “Ət-Tənbih alə’l-fəzaʾil”, “Risalə fi təshili sübüli’l-fəzaʾil” və “Risalə fi’l-ḥilə li-dəfʿi’l-əḥzan”ı misal göstərmək olar. Təəssüflər olsun ki, bu əsərlərdən yalnız “Risalə

fi'l-ḥilə li-dəf'i'l-əḥzan" əsəri müasir dövrə qədər gəlib çatmışdır. "Əl-Kindi insanda var olan üç mühüm əxlaqi faktordan bəhs etməkdədir: 1)Şəhvət gücü, 2) Qəzəb gücü və 3)Ağıl gücü. Əgər bir insanda ağıl gücü, digər güclərə galib gələrsə, o insan hər şeyin həqiqətini dərk etməyə və ən incə məsələləri belə qavramağa başlayar. Bu insanlar eyni zamanda fəzilətli olmağa çalışar, Allaha yaxın olmaq istəyərlər. Cahil insanlar isə şəhvət, ya da qəzəbinin əsiri olaraq qaranlıq dünyada yaşamaqdadırlar. Bu qaranlıq ruhda onlara ilahi həqiqətlər aşkar olmadığına görə, onlar fəzilətdən də məhrum olurlar" [8, s.80]. Əl-Kindiyə görə, kədər anlayışı xəstəlik, arzulara çata bilməmək, əldə olunanları və yaxınlarımızı itirmək kimi bəzi problemlər nəticəsində yaranan psixoloji narahatlıqdır.

Əl-Kindinin fikrincə, nəfsdə aşağıdakı əxlaqi fəzilətlər yer almalıdır:

1. Hikmət – zehni gücün (əl-qüvvət-ül əqliyyə) fəzilətidir, hikmət həqiqəti bilmək və həqiqətdən lazım olanı istifadə etməkdir.
2. Nəcdət – cəsarət baxımından istifadə olunan bir anlayışdır.
3. İffət – şəhvət gücünün (əl-qüvvətü'ş-şəhaviyyə) fəzilətidir. Bu fəzilət insanların bədəni və hafizəsi üçün lazım olan şeyləri yeyib-içmələri, evlənmələri, məskunlaşması və çoxalması prosesləri zamanı özünü biruzə verir.
4. Ədalət – hikmət, nəcdət, iffət və itidal məfhumlarından lazımi hallarda istifadə etməkdir.

Əl-Kindi dinin yoxdan yaranması ideyasını önə sürürdü və bu ideyanı Aristotel və neoplatonizmin prinsiplərinə uyğun olaraq təhlil edirdi. Onun qələmə aldığı "Kitab fi'l-fəlsəfəti'l-ula" əsərinin birinci bölümünün ikinci hissəsində Allahın sonsuzluğu məsələsi öz əksini tapmışdır. Tanrı anlayışı mütləq əbədi olmağın mənasını da özündə ehtiva edir. Allahın sonsuzluğu düşüncəsində onun varlığının mahiyyəti və zəruriliyi, səriştəsi, birliyi, bölünməzliyi və Tanrıya xas olan bütün xüsusiyyətlər var. Əl-Kindinin metafizik doktrinasına görə, Allah dünyanı yoxdan yaratmışdır.

Ümumiyyətlə, əl-Kindinin fəlsəfi sistemində Aristotelin təsiri açıq şəkildə özünü büruzə verir. Mütəfəkkirin fəlsəfi yaradıcılığında Aristotel fəlsəfəsi əsasında İslam dinini analiz etmək dururdu. Bu onun həm tanrı haqqında, həm də ki, kateqoriyalar haqqındakı ideyalarında öz əksini tapmışdır. "Əl-Kindiyə görə, Aristotel fəlsəfəsindəki "ilk səbəb", "ilk təkanverici" məfhumları öz-özünü dərk edən "vahid və əbədi" Allahı nəzərdə tutur. O, Aristotelin müəyyənləşdirdiyi on kateqoriyanı (mahiyyət, kəmiyyət, keyfiyyət, nisbət, yer, zaman, vəziyyət, hal, hərəkət, iztirab) beş "ulu substansiya" (materiya, forma, hərəkət, məkan, zaman) ilə əvəz etmişdir. Onun fikrincə, materiya, forma, hərəkət, məkan, zaman kateqoriyaları aləmdəki hadisələri şərh etmək üçün kifayətdir, yerdə qalan anlayışlar həmin beş kateqoriyada cəmlənir" [9, s.15]. Əl-Kindinin gəldiyi qənaətə görə, əzəli və tanrı anlayışları eyni məzmuna malikdir. Fəlsəfi düşüncə baxımından əzəli olmayan bir varlığın tanrı olaraq adlandırılması mümkün deyil. Allahın kainatla əlaqəsi şüurlu şəkildə həyata keçirilən ağıllı, məqsədyönlü və davamlı bir fəaliyyətdir.

**Nəticə.** Ensiklopedik düşüncə sahibi olan Əbu Yusif Yaqub ibn İshaq ibn Səbbah əl-Kindi ərəb fəlsəfəsinin banisidir. İslam dünyasını qədim yunan fəlsəfəsi ilə tanış etmək üçün böyük səy göstərən əl-Kindi Aristotelin əsərlərinə şərhlər və metafizikaya dair bir sıra əsərlər yazmışdır. Onun təlimində bir qayda olaraq iki cəhət önə çıxır. Bunlardan birincisi Quranın batini mənasını təfsir əsasında axtarmaq, ikincisi isə fəlsəfənin özüdür. Əl-Kindi fəlsəfəni insan qabiliyyətinə görə şeylərin həqiqi mahiyyətini bilmək kimi şərh edirdi və fəlsəfənin riyaziyyat və təbiət elmləri ilə sıx bağlı olduğunu vurğulayırdı.

Qərbdə Alkindus kimi tanınan Əl-Kindi ilk peripatetik müsəlman filosofu hesab edilir. Abbasi xəlifəsi Əl-Məmun "Beyt əl-Hikmət"də ("Hikmətlər evi") yunan elmi-fəlsəfi əsərlərinin ərəb dilinə tərcüməsinə nəzarəti ona həvalə etmişdi. İslam dünyasında ilk dəfə olaraq yunan mütəfəkkirlərinin əsərlərinə müraciət edən, Aristotelin əsərlərini tərcümə və şərh edən Əl-Kindi öz dövrünün ən böyük müsəlman filosoflarından biri idi. O, İslam fəlsəfəsini inkişaf etdirmək məqsədilə müsəlman ictimaiyyətini yunan fəlsəfəsi ilə tanış etmiş, ərəb dilinə bir çox fəlsəfi terminlər daxil etmişdir. Əl-Kindi öz fəlsəfi əsərlərində mütəmadi olaraq Aristoteldən sitat gətirir, lakin onları neoplatonik fəlsəfə çərçivəsində

yenidən formalaşdırmağa çalışırdı. Bu fakt onun metafizika və Tanrının təbiəti haqqındakı fikirlərində daha aydın görünür.

Əl-Kindi hesab edirdi ki, varlığın mahiyyətini öyrənmək, təbiətdəki əsas hadisələri, dünyada mövcud olan varlıqların növlərini və onlar arasındakı əlaqəni izah etməkdə əsas məqsədi Allahı tanımaqdır. Bu səbəbdən əl-Kindi fəlsəfə ilə teologiyanı bir-birindən fərqləndirirdi, lakin bunların hər ikisi eyni mövzunu müzakirə edir. Əl-Kindinin fikrincə, Allah əvvəlcə ağlı yaradıb və onun vasitəsilə Allah bütün başqa şeyləri yaradıb. Əl-Kindi peyğəmbərlik və fəlsəfənin həqiqətə çatmağın iki fərqli yolu olması qənaətində idi. Əl-Kindi belə nəticəyə gəldi ki, peyğəmbər iki məsələdə filosofdan üstündür: həqiqətə asan və dəqiqliklə çatmaqda və həqiqəti ictimaiyyətə çatdırmaqda. Bununla belə, hər ikisi bir məqsəd güdürlər.

Ümumiyyətlə, İslam fəlsəfəsi əl-Kindi ilə başlayır və onun tələbələri vasitəsilə davam edir, Əl-Kindi İslam fəlsəfəsinin atası hesab olunur.

## ƏDƏBİYYAT


1. Fəlsəfə ensiklopedik lüğəti. Bakı: 1997.
2. El-Kindi. Felsefi risaleler (çeviren: M.Kaya). İz Yayıncılık, 1994.
3. Skirbekk Q., Gilye N. Fəlsəfə tarixi: Müasir dünyanın fəlsəfi qaynaqlarına bir baxış. Ali məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: “Zəkioğlu” nəşriyyatı, 2007.
4. Alper Ömer Mahir. İslam felsefesinde akıl-vahiy, din-felsefe ilişkisi. İstanbul: “Ayışığı”, 2000.
5. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı: “Şərq-Qərb”, 2010.
6. Rüstəmov Y. Fəlsəfənin əsasları (mühazirə kursu). Bakı: “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007.
7. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı: “Turan evi” nəşriyyatı, 2012.
8. Manafov R. İslam düşüncəsi. B.İ.U Zaqatala Şöbəsi nəşri, № 03, Bakı, 2007.
9. Məlikov Ə. Müsəlman mütəfəkkirlər: İlk İslam filosofu əl-Kindi. İlahiyyatçı 28.02.2019 (№ 4212)


Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı